**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN İCTİMAİ-PEDAQOJİ FİKRİNDƏ HUMANİZM İDEYALARI (XIX əsrin II yarısı - XX əsrin əvvəlləri)

İxtisas: 5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi
Elm sahəsi: Pedaqogika

İddiaçı: **Gülyanaq Mahir qızı Nəbiyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Naxçıvan - 2024**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsilin pedaqogikası kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: pedaqoji elmlər doktoru, professor
**Fərrux Abbas oğlu Rüstəmov**

Rəsmi opponentlər: Pedaqoji elmlər doktoru, professor
**Hümeyir Hüseyn oğlu Əhmədov**

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Vidadi Paşa oğlu Bəşirov**

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Vahid Məmməd oğlu Rzayev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Müəllimlər İnstitutunun nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Pedaqoji elmlər doktoru, professor
__________ **İsmayıl İsrafil oğlu Əliyev**

Dissertasiya şurasının elmi katibi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
__________ **Qızıltac Tarverdi qızı Şahbazova**

Elmi seminarın sədri: Pedaqoji elmlər doktoru, professor
__________ **Ləzifə Nağı qızı Qasımova**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan xalqı dünyanın qədim və sivil xalqlarından biri kimi lap əski çağlardan insanpərvərlik hisslərinə malik olmuşdur. Onun yaratmış olduğu mədəni-mənəvi sərvət, ədəbiyyat nümunələri, adət-ənənələri bunu aydın şəkildə sübut edir.

XIX əsrin II yarısı və XX əsrin əvvəllərində Azərbaycanda yaranmış yeni ictimai-siyasi, hüquqi, ədəbi-mədəni, iqtisadi və maarifçi-pedaqoji şəraitlə bağlı buradakı humanizm ideyalarının məzmununda da ciddi dəyişiklik baş vermiş, daha doğrusu, o, yeni məzmun və mahiyyət kəsb etmiş, zənginləşmiş, zamanın tələblərinə uyğunlaşmış, daha təkmil və müasir çalarda özünü təzahür etdirmişdir. Təməli o zaman qoyulmuş həmin ideyalar bu gün də öz aktuallığını saxlayır, tədricən daha da təkmilləşir və zənginləşir.

XIX əsrin II yarısı - XX əsrin əvvəlləri Azərbaycan xalqının həyatında, tarixi taleyində son dərəcə əlamətdar, parlaq, məhsuldar və vüsətli inkişaf dövrü kimi xarakterizə olunur. Milli intibah dövrü kimi səciyyələnən bu dövrdə xalqımızın həyatında geniş və hərtərəfli mənada oyanış və inkişaf baş verir. Bu inkişaf ictimai, siyasi, iqtisadi, mədəni-maarif və pedaqoji sahədən tutmuş fikri-mənəvi intibaha qədər müxtəlif sahələri, düşüncə və oyanışı da əhatə edir. Müstəqilliyə, dövlətçiliyə, istiqlaliyyət və azadlığa gedən yolumuzun təməli də həmin dövrdə qoyulur. Baş vermiş dirçəliş və yüksəliş Azərbaycan Xalq Cümhuriyyəti kimi demokratik dövlətin yaranmasına gətirib çıxarır. Hansı ki, bugünkü Azərbaycan Respublikası da həmin dövlətin varisidir. Biz bu müstəqil dövlətimizin yaranmasına səbəb olan stimulları, dəyərləri, şərtləri araşdırıb öyrənməli gələcək nəslə çatdırmalıyıq. O dövrdə təşəkkül tapıb formalaşan, yetkinləşən yeni məzmunlu humanizm ideyaları da xatırlatdığımız stimullar, dəyərlər, şərtlər sırasındadır. Bu mənada da mövzu aktualdır. Onun tədqiqat obyektinə çevrilməsi zəruri ehtiyacla, yəni müstəqilliyə gedən yolumuzun dinamikasını, gedişatını anlamaqdan ötrü gərəklidir.

Ümumiyyətlə, dissertasiya mövzusu bir neçə mənada aktual görünür: Birincisi, dünyanın bütün mədəni xalqları öz tarixlərində

humanizm ideyalarının inkişaf xüsusiyyətlərini, onun cəmiyyətlərinə verdiyi səmərəni, onların milli-mənəvi dəyərləri sistemində yerini öyrənməyə, müəyyənləşdirməyə təşəbbüs göstərirlər. Biz də sivil bir xalq kimi tarixi inkişaf yolumuzun gərəkli mədəni-mənəvi, ictimai-siyasi, hüquqi və pedaqoji-tərbiyəvi dəyərləri kimi bu ideyaları, onun tarixini, xüsusiyyətlərini, xalqımıza verdiyi faydanı tədqiq edib üzə çıxarmalıyıq; İkincisi, bizdə milli müstəqilliyin yaranmasında, dövlətçilik və istiqlaliyyət, demokratik cəmiyyət idealının formalaşmasında humanizm baxışlarının, ideyalarının əvəzsiz rolu olmuşdur. Biz əgər müstəqilliyimizin, dövlətçiliyimizin ideya-nəzəri bazasını, şərtlərini, ilkin qaynaqlarını bilmək istəyir, onun təcrübəsindən yararlanmaq məqsədi güdürüksə, mütləq humanizm ideyalarının o zamankı təşəkkül və təkamül yolunu da araşdırmalıyıq; Üçüncüsü, haqqında danışdığımız ideya və baxışlar bizim o zamankı mütəfəkkirlərimizin irsində formalaşıb üzə çıxmışdır. Bu ideyaları araşdırmaq onların yaradıcılıq irsini öyrənməyə xidmət edir; Dördüncüsü, biz bütövlükdə tərbiyə nəzəriyyəmizin tarixini, onun inkişaf xüsusiyyətlərini, tarixin hansı mərhələsində nəyi qazanıb nəyi qeyb etdiyini öyrənməliyik. Çünki tərbiyə barədəki nəzəri fikirlər tarix boyu xalqın yol yoldaşıdır. Xalqın gələcəyi də tərbiyəvi fikirlərin, nəzəri baxışların hansı istiqamətə yönəlməsindən ciddi surətdə asılıdır. Humanizm ideyaları da bütöv tərbiyə sisteminin bir hissəsidir, tərbiyənin vacib prinsip və vasitələrindən biridir. Nəticə etibarı ilə biz tərbiyə nəzəriyyəsinin prinsip və vasitələrini, o cümlədən humanizm ideyalarını elmi şəkildə tədqiq etməyə borcluyuq; Beşincisi, həm tərbiyə nəzəriyyəmizin, həm də pedaqoji fikir tariximizin bütöv mənzərəsini yaratmaq və təsəvvür etmək üçün də belə bir mövzunun araşdırma hədəfinə çevrilməsinə ehtiyac vardır; Altıncısı, XIX əsrin II yarısı və XX əsrin əvvəlləri başqa sahələrdə olduğu kimi, pedaqoji fikir tariximiz, həmçinin tərbiyə nəzəriyyəmizin inkişafı üçün də zəngin, məhsuldar və diqqətəlayiq bir dövrdür. Dövrün həm pedaqoji mənzərəsini, həm də tərbiyə nəzəriyyəsinin xüsusiyyətlərini dərk etməkdən ötrü o dövrün tərbiyəvi fikirlərini ayrı-ayrılıqda öyrənməyə ehtiyac hiss olunur. Humanizm ideyaları da tərbiyəvi fikrin mühüm bir xətti, gərəkli bir

prinsipi olduğundan onu da tədqiq edib öyrənmək pedaqogika elmimizin xeyrinə olar.

Son illərdə Azərbaycanda humanizm ideyaları sürətlə inkişaf edərək pedaqoji hərəkatın vacib xətlərindən birinə çevrilmişdir. Bu da təbiidir. Belə ki, "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda[1]humanizm dövlətin təhsil siyasətinin əsas prinsiplərindən biri hesab olunur. Son illərdə bu sahədə xeyli diqqətəlayiq işlər görülmüş, təhsilin mahiyyətinə, metodlarına, təşkili formalarına və müəllim-şagird ünsiyyətinə humanist yanaşmalar formalaşmışdır. Bakıda Humanist pedaqogika üzrə "Təhsildə mənəvi-əxlaqi dəyərlər: harmonik şəxsiyyətin inkişafı" mövzusunda 2 beynəlxalq konfrans-seminar (2014, 2016) keçirilmiş, "Humanist Pedaqogika Mərkəzi", "Respublika Humanist Pedaqogika Mərkəzi" yaradılmışdır. ADPU-nun rektoru, professor Cəfər Cəfərovun təşəbbüsü ilə ADPU-da və ADPU-nun Şamaxı filialında Humanist pedaqogika üzrə oxular keçirilmiş[2], F.Rüstəmov[3], Ş.Əliyeva, M.İlyasov, R.Əliyev, Ə.Baxşəliyev, N. Hüseynova[4] və b.-nın humanist pedaqoji ideyalarla bağlı yeni araşdırmaları meydana gəlmişdir.

Azərbaycanlı tədqiqatçılar humanizm tərbiyəsinin nəzəri və praktiki problemləri ilə bağlı araşdırmalar aparmış, Ç.Veysəlova[5] məktəbəqədər yaşlı uşaqların, X.Talıbova[6] ibtidai sinif şagirdlərinin humanizm tərbiyəsini fəlsəfə doktoru dissertasiyası səviyyəsində araşdırmışdır.

---

[1]"Təhsil haqqında" Azərbaycan Respublikası Qanunu: [Elektron resurs]. İyun 19, 2009. URL: http://www.e-qanun.az/framework/18343

[2]Müəllim, məni yaradıcılığa ruhlandır / layihənin rəhbəri C.Cəfərov, tərt. ed. və ön söz müəl. F.Rüstəmov. Bakı: ADPU, 2019. 112 s.

[3]Rüstəmov F.A. Humanist pedaqogika, yaxud pedaqogikada humanizm? Bakı: Elm və təhsil, 2018. 91 s.

[4] Ş.Əliyeva və b. Humanist pedaqogikanın aktual məsələləri. Metodiki vəsait. Bakı: ADPU nəşriyyatı, 2018. 141 s.

[5]Veysəlova Ç. Məktəbəqədər yaşlı uşaqlarda humanizm tərbiyəsinin yolları və vasitələri (5-6 yaş dövrü): / pedaqoji elmlər namizədi dis. / Bakı, 1997. 156 s.

[6]Talıbova X. Kiçikyaşlı məktəblilərin humanizm tərbiyəsi: / pedaqoji elmlər namizədi dis. / Bakı, 1999. 162 s.

Pedaqoq alimlərimizdən Əhməd Seyidovun Abbasqulu ağa Bakıxanova, Əmir Tağıyevin Mirzə Ələkbər Sabirə, Əjdər Ağayevin Fərhad Ağazadəyə, İramin İsayevin Abbas Səhhətə, Zenfira Mehrəliyevanın Cəlil Məmmədquluzadəyə, Ədalət Cəlilovun Süleyman Sani Axundova, Sevinc Əzimovanın Firidun bəy Köçərliyə, Sahilə Orucovanın Üzeyir Hacıbəyova, Tovuz Eminlinin Əli Nəzmiyə, İbrahim Mollayevin Məhəmməd Tağı Sidqiyə, Sevinc Namazovanın Qafur Rəşad Mirzəzadəyə, Günel Məmmədovanın Sultan Məcid Qənizadəyə həsr edilmiş tədqiqatlarında adı çəkilən şəxsiyyətlərin pedaqoji fəaliyyəti, maarifçilik görüşləri, pedaqoji irsi tədqiq olunarkən onların humanist baxışlarının araşdırılmasına da toxunulmuşdur. K.Həsənovanın "Füyuzat" jurnalında təlim-tərbiyə məsələlərinə həsr etdiyi monoqrafiyada həmin jurnalda humanizm ideyalarının intişarı probleminə də müəyyən qədər yer ayırmışlar[7] Bu cür uğurlu təşəbbüslərə baxmayaraq haqqında söhbət açdığımız dövrdə humanizm ideyalarının bütöv və kompleks şəkildə öyrənilməsi elmi araşdırma hədəfinə çevrilməmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini XIX əsrin II yarısı - XX əsrin əvvəllərində Azərbaycanda ictimai-pedaqoji fikrin inkişafı təşkil edir.

Tədqiqatın predmetiniXIX əsrin II yarısı - XX əsrin əvvəllərində Azərbaycan ictimai-pedaqoji fikrində humanizm ideyalarının inkişafı təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.**Tədqiqatın məqsədiXIX əsrin II yarısı, XX əsrin əvvəllərində Azərbaycanda humanizm ideyalarının yeni məzmunda təşəkkülünü, formalaşmasını, əsas xüsusiyyətlərini, inkişaf dinamikasını, xalqımızın milli-mədəni və pedaqoji fikir tarixində yerini və dəyərini, bugünkü və gələcək tariximiz üçün əhəmiyyətini elmi baxımdan araşdırıb üzə çıxarmaqdan ibarətdir.

Tədqiqatın vəzifələri aşağıdakılardır:

– XIX əsrin II yarısı XX əsrin əvvəllərində Azərbaycanda humanizm ideyalarının yeni məzmunda inkişafını mümkün edən tarixi

[7] Həsənova K. "Füyuzat" jurnalında təlim-tərbiyə məsələləri. Bakı: Elm və təhsil, 2018. 216 s.

şəraiti, ictimai-mədəni, maarifçi-pedaqoji səbəbləri,əsas qaynaqları, və mənbələrini aydınlaşdırmaq;

– Şərqdə və Azərbaycanda lap qədim dövrlərdən mövcud olan insanpərvərlik ideyalarının XIX əsrin II yarısı XX əsrin əvvəllərində milli mühitdə humanist baxışların formalaşmasına və inkişafına təsirini izah etmək;

– Qərbdə mövcud olan humanist fikir, baxış və ənənələr haqqında danışdığımız dövrdə Azərbaycanda humanizm ideoloqlarının, milli tərbiyəçilərimizin yaradıcılığına və görüşlərinə təsirini şərh etmək;

– XIX əsrin II yarısı XX əsrin əvvəllərində Azərbaycanda humanizm ideyalarının təzahür xüsusiyyətlərini, keyfiyyət dəyişikliyini, əsas məzmun və mahiyyətini aydınlaşdırmaq, habelə həmin ideyaları yaradan və yayan şəxsiyyətlərin bu sahədəki nəzəri və əməli fəaliyyətinə aydınlıq gətirmək;

– XX əsrin əvvəllərində humanizm ideyalarının əsas məzmununu, mahiyyətini, konturlarını, atributlarını, ictimai-mədəni və pedaqoji mühitlə əlaqəsini, habelə milli müstəqillik idealı və demokratik cəmiyyət quruculuğu ilə bağlılığını üzə çıxarmaq;

– Humanizm ideyalarının inkişaf və təbliğat vasitələrini müəyyənləşdirmək, böyüməkdə olan nəsil arasında əsas tərbiyə vasitələrindən olan dərsliklərdəki tərbiyəvi materialların məzmununu şərh etmək;

– Deyilən ideyaların gənc nəsil arasında təbliğ və tərbiyəsində digər mühüm vasitə olan pedaqoji mətbuatın bu sahədəki rolunu açıb göstərmək, buradakı materialların səciyyəsini, xarakterini aydınlaşdırmaq;

–Demokratik ruhlu Azərbaycan ictimai-mədəni və pedaqoji fikrində qadın şəxsiyyətinə yeni münasibətin əsas cizgilərini, mahiyyətini, xarakterini müəyyənləşdirmək;

– Mütərəqqi, humanist cəmiyyət yaratmaqda, milli tərəqqi və səadətə nail olmaqda milli mütəfəkkirlərimizin qadına verdiyi dəyərin səciyyəsini və tərbiyəvi rolunu aşkara çıxarmaq.

**Tədqiqatın metodları.** Tədqiqat zamanı nəzəri, tarixi və müqayisəli təhlil, problemlə bağlı elmi-pedaqoji, ədəbi-bədii, tarixi, fəlsəfi

materialların, sənədlərin öyrənilməsi və sistemləşdirilməsi kimi metodlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– XIX əsrin II yarısı XX əsrin əvvəllərində Azərbaycanda humanizm ideyalarının yeni məzmunda təzahürünü, təşəkkülünü, formalaşmasını, inkişafını mümkün edən və şərtləndirən mövcud ictimai-siyasi, maarifçi-pedaqoji, mədəni-tarixi şərait və mühit olmuşdur.

– İstər şərq, istərsə qərb ədəbi, mədəni, fəlsəfi, hüquqi və pedaqoji fikrinin çoxəsrlik tarixə malik humanizm ideyaları, baxış və ənənələri XIX əsrin II yarısı XX əsrin əvvəllərində Azərbaycanda humanizm ideyalarının formalaşmasına və inkişafına ciddi surətdə təsir göstərmişdir.

– XIX əsrin II yarısı XX əsrin əvvəllərində Azərbaycanda yeni məzmunlu humanizm ideyalarının əsas yaradıcıları, ideoloqları, təbliğatçıları və daşıyıcıları xalqın yetkin, qabaqcıl, demokratik fikirli ziyalı dəstəsi olmuşdur.

– XIX əsrin II yarısı XX əsrin əvvəllərində yaranıb inkişaf edən humanizm ideyaları Azərbaycan milli-ictimai mühitində milli müstəqillik, mütərəqqi cəmiyyət, azadlıq və bərabərlik idealının formalaşmasında, insanpərvərlik qanunları ilə idarə olunan dövlətin və dövlətçilik şüurunun yaranmasında son dərəcə əhəmiyyətli rol oynamışdır.

– Həmin dövrdə formalaşan yeni məzmunlu humanizm ideyaları islam coğrafiyasının bir hissəsi olan Azərbaycanda qadının hüquqi-mənəvi əsarətdən qurtuluşunda, bərabərhüquqlu cəmiyyət üzvü olmasında, azadlığında cəmiyyətin fəal və qurucu üzvünə çevrilməsində mühüm dəyər kəsb etmişdir.

– Haqqında danışdığımız dövrdə yaranıb inkişaf edən humanizm ideyaları müasir dövrdə də məzmun, mahiyyət, mündəricə və səmərə etibarı ilə öz dəyərini itirməmişdir.

**Tədqiqatın elmi yeniliyi.**XIX əsrin II yarısı, XX əsrin əvvəllərində Azərbaycanda humanizm ideyalarının yeni məzmunda təşəkkülü və formalaşmasının əsas xüsusiyyətləri araşdırılır, inkişaf dinamikası üzə çıxarılır, xalqımızın milli-mədəni və pedaqoji fikir tarixində yeri və rolu müəyyənləşdirilir, milli maarifçilərimizin humanizm ideyaları,

insana yeni münasibət və insanpərvərlik baxışları ilə bağlı fikirləri tam və sistemli olaraq öyrənilir, müasir təhsil və pedaqoji fikir tarixinə təsiri üzə çıxarılır

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Belə bir problemin öyrənilməsi pedaqoji fikir tariximizin inkişaf istiqamətlərini sistemli şəkildə anlamağa, müstəqilliyə, demokratik cəmiyyətə, müasir mənada dövlət quruculuğuna gedən yolumuzun nəzəri-ideoloji şərtlərini dərk etməyə kömək edir. Tədqiq olunan mərhələdə mədəni-pedaqoji hərəkatın əhəmiyyətini başa düşməyə imkan verir. Həmin dövrdə meydana gələn nəzəri fikirlərdən, mütərəqqi baxışlardan, o cümlədən humanist ideyalardan, tarixi təcrübədən həm indi, həm də gələcəkdə demokratik cəmiyyətimizin inkişafında yararlanmaq mümkündür.

Tədqiqatın nəticələrindən ilk növbədə Azərbaycanda məktəb və pedaqoji fikir tarixinə aid dərslik və dərs vəsaitinin, habelə "Azərbaycan pedaqoji fikir antologiyası"nın və müntəxabatının hazırlanmasında istifadə etmək mümkündür. Azərbaycanın ali pedaqoji məktəblərdə pedaqogika tarixi və nəzəriyyəsinə aid mühazirəvə seminar məşğələlərində tədqiqatın nəticələrindən faydalanmaq olar. Dissertasiya mədəniyyət və ictimai fikir tariximizi zənginləşdirmək baxımından da müəyyən əhəmiyyətə malikdir.

**Tədqiqatın aprobasiyası və tətbiqi.**Tədqiqatın mövzusu və nəticələri ilə bağlı müxtəlif elmi-praktik konfranslarda məruzələr edilmiş, Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda 6 məqalə 1 tezis, habelə xarici ölkədələrdə 3 məqalə, 5 tezis dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsilin pedaqogikası kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya işi giriş, 8 paraqrafdan ibarət olan üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, 8 paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 10 səhifə, 19592 işarə, I fəsil – 36 səhifə,

72872 işarə (1.1. – 17 səhifə, 33593 işarə; 1.2. – 19 səhifə, 39178 işarə), II fəsil – 61 səhifə, 123177 işarə (2.1. – 18 səhifə, 36328 işarə; 2.2. – 19 səhifə, 39119 işarə; 2.3. – 12 səhifə, 23340 işarə; 2.4. – 12 səhifə, 24268 işarə), III fəsil – 31 səhifə, 63708 işarə (3.1. – 14 səhifə, 29358 işarə; 3.2. – 18 səhifə, 34283 işarə), nəticə 4 səhifə, 7541 işarə, istifadə olunmuş ədəbiyyat siyahısı 15 səhifədən ibarət olmaqla dissertasiyanın ümumi həcmi 160 səhifə, 287721 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **“Giriş”** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsədi və vəzifələri müəyyənləşdirilir, nəzəri və praktik əhəmiyyəti göstərilir, işin aprobasiyası və dissertasiyanın həcmi haqqında məlumat verilir.

Dissertasiyanın **“Humanizm ideyalarının təşəkkülü və onun Azərbaycanda ictimai-mədəni və pedaqoji mühitin inkişafına təsiri”** adlı birinci fəslin ilk paraqrafında **“Şərq humanizm ideyalarının Azərbaycanda ictimai-mədəni və pedaqoji mühitin inkişafına təsiri (XIX əsrin II yarısı, XX əsrin əvvəlləri)”** araşdırılır.

Əsaslandırılır ki, humanizmin tarixi bəşəriyyətin tarixi qədər qədimdir. Zəngin mənbələr sübut edir ki, qədim dövrlərdən sivil cəmiyyətlərdə insanpərvərliyin bir sıra elementləri həm praktiki olaraq tətbiq edilmiş, həm də onunla bağlı maraqlı nəzəri fikirlər, öyüd-nəsihətlər söylənmişdir. Qədim Misirdə əsiri azad etmək, acı doyuzdurmaq, yanana su vermək, öləni dəfn etmək, xəstəni müalicə etmək, qərib olana rahatlıq yaratmaq, lütü geyindirmək şərəf hesab olunurmuş. Qədim Çin yazılı abidələrindən olan imperator Ven Dinin “Ziyalı padşahın əhaliyə kömək tədbirlərinin müzakirəsi barədə manifesti” bütünlüklə humanist məzmunlu bir mətndir. “Lunyuy“ kitabının “Hökmlər və söhbətlər” hissəsində müəllim öz şagirdinə nəsihət verərkən bildirir ki, dövləti ədalətlə idarə etməkdən ötrü vacib olan ən mühüm şərt xalqı sevməkdir. Qədim hind bədii, fəlsəfi, əxlaqi-pedaqoji fikri də insanpərvərlik ideyaları ilə zəngindir. Bəşəri məzmun və ideyası ilə dünyanın mənəvi sərvət xəzinəsində möhtəşəm yer tutan “Mahabharata” dastanında humanizm fəlsəfəsi bir tərbiyəvi fikir kimi

çox güclüdür. Qədim şumerlər də insanpərvərlik ideya və əməllərinin daşıyıcıları kimi tanınmışdılar. “Bilqamıs” dastanı insansevərlik duyğusunu, insanın şərəf, ləyaqət və böyüklüyünü təbliğ edən möhtəşəm əsərdir.

Bəşər tarixində yer üzündə mövcud olan səmavi dinlərin əksəriyyətində insana müsbət münasibət, onun şərəf və ləyaqətinə ehtiram, insanlararası ünsiyyətdə qarşılıqlı hörmət və xeyirxahlığın təbliği ön plandadır. Ən qədim dinlərdən olan zərdüştilikdə və onun müqəddəs kitabı “Avesta”da, insanlıq, yaxşılıq, bəşər övladına sevgi, ədalət, qayğıkeşlik aşılayan buddizmdə, iudaizmdə, “İncil”də, islamda insanpərvərlik əxlaqı təlqin edən çoxlu sayda göstərişlər və təlqinlər vardır. İslam dini zülmə, ədalətsizliyə qarşı çıxır, ədaləti, insanlarla xeyirxah davranışı təbliğ edir. “Quran” belə bir həqiqət bəyan edilirki, Allahın xəlq etdiyi bütün insanlar dilindən, milliyyətindən, cinsindən, vəzifəsindən, irqindən, maddi imkanından asılı olmayaraq bərabərdir. Onların birini digərindən fərqləndirən, üstün edən yalnız onların möminlik mərtəbəsi, Haqqa hansı dərəcədə bağlılığı və ya cəhalətinin ölçüsüdür. İlk paraqrafda qədim türk dastanlarında təbliğ olunan humanizm ideyaları ümumiləşdirilir, türk, fars, ərəb mütəfəkkirlərinin humanizmlə bağlı fikirləri təhlil və tədqiq olunur.

Fəslin ikinci paraqrafında **“Avropa humanizm ideyalarının Azərbaycanda ictimai-mədəni və pedaqoji mühitin inkişafında rolu (XIX əsrin II yarısı - XX əsrin əvvəlləri)”** araşdırılır. Antik yunan və Roma filosoflarının humanizmə bağlı fikirləri təhlil edilir, İntibah dövrünün humanizminin təhsil və pedaqoji fikrə təsiri göstərilir. “Bu, bəşəriyyətin o vaxta qədər gördüyü bütün çevrilişlər içərisində ən böyük mütərəqqi bir çevriliş idi, dahilərə ehtiyacı olan, təfəkkür, ehtiras və xarakter cəhətdən, kamillik və alimlik cəhətdən dahilər yetirən bir dövr idi”[8]. İntibah nəzəriyyəçilərinə görə bütün insanlar “vahid ilahi mənşəyə” malikdirlər. Ona görə də onlar hamısı bərabər və xoşbəxt yaşamalıdırlar. Orta əsr Avropa maarifpərvərləri sxolastik təhsil sisteminə qarşı çıxır, məktəblərdə dünyəvi elmlərin tədrisini cəmiyyətin

[8]Azərbaycan Sovet Ensiklopediyası: [10 clilddə]. Bakı: ASE nəşr.-tı, c. VIII. 1984. 608 s.

inkişafı yolunda vacib şərtlərdən sayır, tədris ocaqlarındakı fiziki cəzaya etirazlarını bildirirdilər. Humanist pedaqoqlar qadınların təhsil almasına tərəfdar çıxırdılar. Sonrakı mərhələdə maarifçilərin insana, onun şəxsiyyətinə münasibətləri, humanist görüşləri yeni məzmun qazandı. Yeni və Ən yeni dövrdə yeni məzmun və ideyalarla zənginləşdi. Şəxsiyyətin inkişafı və formalaşması ilə bağlı müxtəlif humanist nəzəriyyələr meydana çıxdı. Paraqrafda həmin ideyaların XIX əsrin II yarısı və XX əsrin əvvəllərində Azərbaycan ədəbi-mədəni, ictimai-siyasi və pedaqoji mühitində, məktəb və maarif gerçəkliyində son dərəcə ciddi, əsaslı və intensiv şəkildə özünü göstərdiyi, demokratik məfkurə, məslək və düşüncəli ziyalılarımızın bu ideyalardan kifayət qədər yararlandığı və onu milli gerçəkliyimizə tətbiq etməyə çalışdığı əsaslandırılır. İnkarolunmaz həqiqətdir ki, bu dövrdə Azərbaycanda ictimai, siyasi, mədəni, ədəbi, pedaqoji mühitin müasir məcraya yönəlməsində, maarif və məktəb həyatının demokratikləşməsində, milli şüurun dirçəlişində, müasir məzmunlu Qərb mədəniyyətinin, maarifçilik fikrinin, Avropa düşüncə tərzinin böyük rolu olmuşdu.

Dissertasiyanın **“Azərbaycan ictimai-mədəni və pedaqoji mühitində yeni məzmunlu humanist ideyaların yaranması və onun inkişafının əsas mərhələləri”** adlı ikinci fəslinin ilk paraqrafı “**XIX əsrin II yarısında Azərbaycan ictimai-mədəni və pedaqoji fikrində humanizm ideyalarının təşəkkülü və formalaşması”** adlanır. Burada əsaslandırılır ki, siyasi-inzibati dəyişikliyin arxasınca Azərbaycanda yeni bir epoxanın bünövrəsi qoyuldu. İctimai, mədəni, ədəbi, pedaqoji, iqtisadi mühitdə əsaslı dəyişikliklər, təbəddülat və yeniliklər dövrü başladı. XIX əsrin 30-cu illərindən etibarən dövlət tərəfindən rus dilində yeni tipli-Avropa tipli maarif ocaqları təsis edildi. 70-80-ci illərdən etibarən Azərbaycanda “üsuli-cədid” hərəkatı başladı. Məktəb və maarif sahəsində ciddi nailiyyətlər qazanıldı. Yeni tipli məktəbin gətirdiyi ən mühüm uğurlardan biri də bu oldu ki, həmin maarif ocaqlarında yeni təfəkkürlü, müasir bilik və dünyagörüşə, milli düşüncəyə yiyələnmiş, vətənpərvər, xalqsevər bir ziyalı nəsli yetişdi. Azərbaycan maarifçiləri həm şərqin, həm də qərbin insana münasibətdə ortalığa qoyduqları ən mütərəqqi dəyərləri, ideya və

mətləbləri əxz etdilər, öyrəndilər. Mübarizənin təməl daşını qoyanlar Azərbaycanın ilk maarifçiləri oldular.

Azərbaycanda milli intibah dövrü kimi səciyyələnən və XIX yüzilliyin ortalarından başlayıb XX yüzilliyin ilk iki onilliyini də əhatə edən dövrü humanizmin yeni keyfiyyətdə, çağdaş məzmun və mahiyyətdə təzahürü, təkamülü və inkişafı baxımından iki mərhələyə ayırmaq olar: 1.Təşəkkül və formalaşma mərhələsi (XIX əsrin 30-40-cı illərindən başlayıb əsrin sonuna qədər olan dövr); 2.Yetkinlik mərhələsi (XX əsrin əvvəlləri).

XIX əsr Azərbaycanda yeni məzmunlu humanizm ideyalarının inkişafında ilkin mərhələ, yəni təşəkkül və formalaşma mərhələsi sayıla bilər: Bu ideyalar həmin əsrin 30-40-cı illərində ilk maarifçilərimizin yaradıcılığında intişar tapdı, M.F.Axundov, "Əkinçi", "Ziya", "Kəşkül" qəzetinin əməkdaşları, M.Şahtaxtlı, M.T.Sidqi, S.M.Qənizadə və b. demokratik fikirli ziyalılarımız tərəfindən inkişaf etdirildi.

Azərbaycanda humanist cəmiyyət yaratmaq məramını ümumdövlət səviyyəsinə qaldırmaq, onu dövlətin və cəmiyyətin ideoloji strategiyasına çevirmək ideyası M.F.Axundovdan başlayır, cücərib boy atır və XX yüzilliyin əvvəllərində milli ictimai-mədəni, maarifçi-pedaqoji fikirdə yetkin bir sistem halına gəlir. Mirzə Fətəlinin humanist cəmiyyət yaratmaq ideyasının əsas şərtlərindən biri də toplumu təşkil edən fərdlərin bütövlükdə düşüncə və fikir azadlığına malik olmaları idi. Bu ideyanı isə millətə müasir məktəblərdə aşılamaq mümkün idi.

Azərbaycan milli mətbuatının ilk qaranquşu olan "Əkinçi" qəzetinin əməkdaşları M.F.Axundovun ideyalarını ləyaqətlə davam etdirirdilər. Əlbəttə, bu işıqlı yolda qəzetin naşiri və redaktoru Həsən bəy Zərdabinin (1842-1907) o zamankı milli ictimai-mədəni mühitdə yeganə mötəbər fikir tribunası olan bu mətbuat orqanına verdiyi demokratik istiqamətin, ruhun danılmaz rolu var idi.

Azərbaycanda əsrlər boyunca humanizm ideyaları pərvəriş tapıb inkişaf etsə də, XIX əsrin ortalarından etibarən onun məzmun və mahiyyətində əsaslı keyfiyyət dəyişməsi baş verdi. Hər şeydən əvvəl bu ideyaların təbliğində, təlqinində ənənəvi moizəçilikdən, nəsihətçi-

likdən şərhçiliyə, izahata, elmi və ictimai-siyasi inandırma yoluna keçildi. Milli mütəfəkkirlərimiz başa düşdülər ki, moizə ilə, öyüd-nəsihətçiliklə humanizmin sosial-siyasi, hüquqi-mədəni dəyərini kütləyə başa salmaq mümkün deyil. Bu yolda məqsədə yalnız inandırıcı həyati şərhlər, izahatlar, sübutlar, müqayisələr yolu ilə çatmaq olar. XIX əsrin ortalarından başlayıb Birinci rus inqilabına qədər davam edən dövr isə Azərbaycan ictimai-mədəni və pedaqoji fikrində yeni məzmunlu humanist ideyaların intişarında ilk mərhələ, daha doğrusu, təşəkkül və formalaşma mərhələsidir. Milli mütəfəkkirlərimiz öz ideyalarını həm bədii, həm də ictimai, siyasi, publisistik və pedaqoji məzmunlu əsərlər vasitəsi ilə bəyan edirdilər. XIX əsrin II yarısında Azərbaycan pedaqoji fikrində təşəkkül tapan insanpərvərlik ideyaları XX əsrin əvvəllərində daha yüksək səviyyəyə qaldırıldı. Həmin məsələlər fəslin **"XX əsrin əvvəllərində Azərbaycan pedaqoji fikrində humanizm ideyalarının inkişaf istiqamətləri"** adlı ikinci paraqrafında öz əksini tapıb. XX əsrin əvvəllərində Azərbaycan ictimai-mədəni mühitində mütərəqqi fikrin, o cümlədən humanizm ideyalarının intişarında və yüksəlişində üç böyük ziyalı dəstəsinin fəaliyyəti daha çox diqqəti cəlb edir. Bunlar "füyuzat"çılar, "molla nəsrəddin"çilər və bu iki mətbuat orqanından kənarda fəaliyyət göstərən maarifçilər idilər. Onların arasında bəzi ideya və məfkurə fərqləri özünü büruzə versə də, məqsəd bir idi: xalqın, vətənin və vətən övladının istiqlalına və istiqbalına xidmət, onu hürr, azad və xoşbəxt görmək. Buna görə də onların amalı və əməli ziddiyyət təşkil etməyib əslində biri digərini tamamlayırdı. Milli məkanda mütərəqqi və humanist cəmiyyət idealının əsas konturlarını, ideoloji bazasını da məhz bu böyük ziyalılar hazırladılar. Milli intibah dövrünün Azərbaycan maarifpərvərləri aydın dərk edirdilər ki, humanist cəmiyyət yaratmağın ən ümdə şərti ictimai mühitdə ümumi məhəbbətə nail olmaqdır. Bu məhəbbət cəmiyyətin bütün təbəqələrini, zümrələrini, siniflərini, silklərini əhatə etməlidir. F.Köçərli öz həmkarlarının bu barədə baxışlarını belə ifadə edirdi:"Hər şey məhəbbətə bağlıdır. Hər bir şeyə həyat verən, hər bir şeyi tər və təzə qılan, hər bir şeyi gözəl, məqbul

və nurani edən məhəbbətdir!”.[9] Humanizm carçıları yalnız insanpərvərlik ideyalarını təbliğ etməklə kifayətlənmirdilər. Onlar xalqın qabaqcıl fikir və söz sahiblərini bu işdə səfərbərliyə çağırır, milli tərbiyəçiləri, rəiyyətin namusunu (“namusi-rəyani”) çəkən, onu doğru yola yönəldən “ərbabi-dühanı” (düha sahiblərini) alqışlayırdılar.

Deyilənləri yekunlaşdıraraq belə bir nəticəyə gələ bilərik. Azərbaycan ictimai-mədəni və pedaqoji gerçəkliyində XIX əsrin 30-40-cı illərindən intişar tapan yeni məzmunlu humanizm ideyaları əsr boyunca inkişaf edib daha da zənginləşir, özünün ilkin yüksəliş mərhələsini yaşayır. XX əsrin əvvəllərində isə daha da çiçəklənir, yetkinləşib bütöv bir sistem, kamil bir konsepsiya halına düşür. Belə bir konsepsiyanın hazırlanmasında, xalqın bu ruhda tərbiyəsində, onun mütərəqqi, humanist ideallara yiyələnməsində bütün tərəqqipərvər ziyalılar əlbir, yekdil, bir vətəndaş qeyrəti və yanğısı ilə fəaliyyət göstərirlər. Onlar həm humanist cəmiyyət yaratmağın xırda təfərrüatlarını, detallarını izah edir, kütlənin nəzərinə çatdırır, onu bu istiqamətdə maarifləndirirdilər, həm də belə bir cəmiyyət yaratmağın bütöv sistemini, əsas konturlarını ortalığa qoyurdular. Xalqı başa salırdılar ki, insanpərvərlik hissləri ictimai mühitə hakim olmadan, bütöv topluma sirayət etmədən nə tərəqqiyə, nə milli və dövlət səviyyəsində səadətə, nə də xoşbəxt yaşayışa, milli istiqlala, arzu olunan istiqbala yetişmək mümkün deyil. Humanist cəmiyyət yaratmaq üçünsə zülmü, istismarı, istibdadı, milli, dini, silki-sinfi nifaq və ixtilafları aradan qaldırmaq, ümumi məhəbbətə, qardaşlığa, birliyə, xeyirxahlığa nail olmaq, nəfsi istəklərə olan sevgini bəşər övladına olan sevgi ilə əvəz etmək lazımdır. Xalqların və bəşəriyyətin nicatı, xilası məhəbbətdə, birlikdə və xeyirxahlıqdadır.

Fəslin **“Humanizm ideyalarının inkişafında ana dili dərsliklərinin və oxu kitablarının rolu”** paraqrafında “Rəbiül-ətfal” (S.Ə.Şirvani), “Vətən dili” (A.O.Cernyayevski), “Bəsirətül-ətfal” (R.Əfəndiyev), “Birinci İl” (M.Mahmudbəyov),“İkinci il” (M.Mahmudbəyov və b.), “Yeni məktəb” (M.Mahmudbəyov, A.Səhhət), “Ədəbiyyat məcmuəsi” (F.Ağazadə),“Uşaq gözlüyü” (A.Şaiq),“Milli

[9] Köçərli F.Ə. Seçilmiş əsərləri. Bakı: Azərb. SSR EA-nın nəşri, 1963. 341 s.

qiraət kitabı" (A.Şaiq) və s. dərsliklərin, habelə bir sıra sinifdənxaric oxu kitabları problem baxımından geniş təhlil edilir.

Fəslin **"Azərbaycanda humanist pedaqoji ideyalarının inkişafında pedaqoji mətbuatın rolu"** adlı sonuncu paraqrafında Azərbaycanda XX əsrin əvvəllərində böyüyən, təhsil alan gənclərin tərbiyəsində əqli-fikri dünyasının, həyata baxışlarının formalaşmasında, bir sıra gərəkli ideyalara, biliyə yiyələnməsində o zamankı pedaqoji mətbuatın da müəyyən rolu olmuşdur. XX əsrin əvvəllərində Azərbaycanda "Dəbistan" (1906-1908), "Rəhbər" (1906-1907) və "Məktəb" (1911-1920) kimi pedaqoji mətbuat orqanları mövcud olmuşdur. Bunlar xalqımızın tarixində ilk uşaq mətbuatı orqanları idi. Milli məkanda böyüməkdə olan nəslin hərtərəfli mənada tərbiyəsində jurnallar əhəmiyyətli rol oynadı. Gənc nəslin humanist ruhda tərbiyəsində də bu mətbuat orqanlarının danılmaz rolu oldu. Hər üç jurnalda insanpərvərlik mövzusunda yazılmış coxlu sayda dəyərli, tərbiyəvi materiallara rast gəlirik. Çoxu pedaqoq-tərbiyəçi olan bu müəlliflər uşaqların idraki imkanlarına, zövqünə, maraqlarına, yaş səviyyəsinə həssaslıqla yanaşır, onlara nəyi və necə verməkdə düzgün, münasib yol seçirdilər. Yəni humanizm, onun mahiyyəti və detalları ilə əlaqədar nəzəri mülahizələr, mücərrəd şərhlər və fikirlər söyləmir, onun ayrı-ayrı vacib elementlərini, məziyyətlərini, xüsusiyyətlərini anladan sadə, məzmunlu, həyati əhvalatlar, hekayə və şeirlər verirdilər. Bu cür əhvalatlar uşaqların mətləbi tez və yaxşı anlamasına və humanist ruhda böyüməsinə daha effektli təsir göstərirdi. Haqqında söhbət gedən element və xüsusiyyətlər, əsasən, aşağıdakılardan ibarət idi: Zülm və ədalət; insaf; yaxşılıq; xeyirxahlıq; səxavət; qarşılıqlı hörmət və ehtiram; insanlara qarşı məhəbbət; insanlar arasında milli, dini, cinsi, maddi və irqi ayrı-seçkilik salmamaq; səmimi və istiqanlı olmaq; başqalarına münasibətdə kin-küdurətdən, qisasçılıqdan, intiqam hissindən uzaq olmaq; təmənnasız yaxşılıq etməyi bacarmaq; ictimai mühitdəki zülmün, zorakılığın, qəddarlığın, özbaşnalığın kökünü kəsmək; ittifaq və birliyə nail olmaq; hamının şəxsiyyətinə, azadlığına, hüquqlarına hörmətlə yanaşmaq və s. Bu cür aktual ideya və mətləblərin təlqini zamanı qələm sahibləri nümunəvi uşaq və böyük surətləri yaradır, ibrətamiz əhvalatlardan yararlanır, onları oxuculara

bir örnək kimi nişan verirdilər. Başqa sözlə, çoxu pedaqoq olan uşaq yazıçıları gənc nəsli humanist ruhda böyütməkdən ötrü lazım olan müxtəlif əlverişli üsul və vasitələrdən istifadə edirdilər. Onlar xalqın gələcəyi olan vətən övladlarına başa salmaq istəyirdilər ki, mütərəqqi və humanist cəmiyyət yaratmaqdan ötrü humanist şəxsiyyətlər, insansevər vətəndaşlar yetişdirmək lazımdır. Humanist şəxsiyyətdə isə yuxarıda sadalanan müsbət xarakter və keyfiyyətlər cəmləşməlidir. Bu şəxsiyyət humanizmin rəngarəng cəhətlərini nəzəri və əməli cəhətdən özündə birləşdirməlidir. Ona görə də milli tərbiyəçilərimiz tərbiyə prosesində humanizmin hər bir elementinə, hər bir xüsusiyyətinə diqqət yetirməyə çalışırdılar.

Dissertasiyanın **"Azərbaycanda qadın təhsili humanizm tərbiyəsinin mühüm şərti kimi"**adlı üçüncü fəslinin ilk paraqrafı "XIX əsrin II yarısında Azərbaycan maarifçilərinin pedaqoji irsində qadın təhsili və tərbiyəsi problemi" adlanır. Humanist mütəfəkkir və ideoloqlar yalnız o cəmiyyəti humanist cəmiyyət hesab edirlər ki, kişilərə aid edilən əsas imtiyazlar, hüquqlar qadına da aid edilsin. Qadın ictimai gerçəkliyin bərabərhüquqlu üzvü kimi qəbul olunsun.. Azərbaycanda qadın təhsilinin inkişafını araşdırmış S.Məmmədov haqlı olaraq qeyd edir ki: "Qadın cəmiyyətin mədəniyyətinin ilk təməl daşlarını qoyanlardan biridir. Buna görə də qadın məsələsi, qadının cəmiyyətdəki mövqeyi və onun bu cür asılılıqdan azad olması bir çox ölkələrin tərəqqipərvər adamlarını düşündürmüşdür. Müxtəlif dövrlərin ictimai xadimləri, alimləri qadın haqqında bir sıra əsərlər yazmış, dəyərli fikirlər söyləmişlər. Məşhur fransız maarifçisi Jonvo göstərir ki, o ölkədəki qadın alçaldılmışdır, orada sivilizasiya yoxdur. O dövlətdə ki, qadın maariflənmişdir, həmin xalq öz parlaq gələcəyinə əmin ola bilər"[10]. Qadına insani münasibət humanizmin tərkib hissəsidir. Çünki qadınlar cəmiyyətdə ictimai toplumun ən azı yarıya qədərini təşkil edir. Azərbaycanda qadına yeni, humanist münasibətin ilk əlamətləri XIX əsrin 30-40-cı illərində ilk maarifçilərimizdən başladı. Daha sonra əsr boyunca M.F.Axundov, "Əkinçi", "Ziya" və "Kəşkül"

---

[10]Məmmədov S. Azərbaycanda qadın təhsili və Azərbaycanın tərəqqipərvər qadınlarının maarifçilik fəaliyyəti (XIX əsrin II yarısı - 1920-ci ilə qədər): / tarix elmləri doktoru dis./ Bakı, 1996. 359 s.

qəzetlərinin əməkdaşları, habelə M.Şahtaxtlı, E.Sultanov, M.T.Sidqi, S.M.Qənizadə və s. kimi tərəqqipərvər ziyalılarımız tərəfindən davam və inkişaf etdirildi. Onlar qadına humanist münasibətdə Qərb dəyərlərinə daha çox üstünlük verir, milli mühitdə həmin dəyərlərin tətbiqinə rəvac verməyi məsləhət görürdülər. Lakin bu zaman islam dəyərlərini, şəriət qanun-qaydalarını da unutmurdular. Onlar qadını ictimai əsarətdə, çadrada, hüquqsuz vəziyyətdə saxlamağın, çoxarvadlılığın əleyhinə çıxır, onların azadlığının, ictimai bərabərliyinin tərəfdarı kimi çıxış edirdilər. Qız məktəbləri açmağı, qadınları təhsilə cəlb etməyi, onları maarifləndirməyi zəruri sayırdılar. Onları ailə tərbiyəsinin, cəmiyyətin tərəqqi yolunun əsas iştirakçıları kimi dəyərləndirirdilər. Bir sözlə, Azərbaycan ziyalıları belə hesab edirdilər ki, qadınlar humanist cəmiyyət yaratmağın əsas iştirakçıları olmalıdırlar. Yəni qadın problemi həll olunmadan humanist, demokratik dövlət və ictimai quruluş yaratmaq mümkün deyil. Lakin onlar bu ideya və baxışlarını yayarkan mürtəce ruhanilərin və qaragüruhun ciddi müqaviməti, etirazı ilə üzləşirdilər. Cəmiyyət bu yeni münasibəti asanlıqla həzm və qəbul etmək istəmirdi. Bununla belə aparılan iş və təbliğat tədricən öz bəhrəsini verməkdə idi.

Fəslin **"Azərbaycan maarifçiləri qadın təhsili və tərbiyəsi haqqında (XIX əsrin II yarısı XX əsrin əvvəlləri)"** adlı son paraqrafında əsaslandırılır ki, XX əsrin əvvəlləri Azərbaycanda qadına yeni və humanist baxışın yetkinlik, bütöv bir sistem halına düşmə mərhələsidir. Birinci rus inqilabı nəticəsində yaranan yeni ictimai-siyasi, ədəbi-mədəni və pedaqoji ab-havanın da qadına humanist münasibətin dəyişməsində, yetkinləşməsində, saflaşmasında və Avropa sisteminə uyğunlaşmasında mühüm təsiri vardır. Bu taleyüklü hadisənin ideoloqları, nəzəriyyəçiləri, təbliğatçıları və təşviqatçıları demokratik məfkurəli milli ziyalılarımız idilər. Həmin məsələdə "molla nəsrəddin"çilər, "füyuzatçılar" və bütün tərəqqipərvər ziyalılar yekdil mövqedən çıxış edirdilər. Lakin bu yolda onlar mürtəce qüvvələrin, mühafizəkar ruhanilərin, hətta bəzi mətbuat orqanlarının ciddi müqaviməti, tənqidi və təzyiqi ilə üzləşirdilər.

Mütərəqqi fikirli maarifpərvərlərimzin baxış və ideyalarını, əsasən, bu tezislər və xətlər ətrafında cəmləşdirmək mümkündür: İslam şərqində, o cümlədən Azərbaycanda qadınlar əsrlər boyunca hüquqsuz qalmış, cəmiyyət işlərindən kənarlaşdırılmış, ictimai köləyə çevrilmiş, kamil tərbiyəçi funksiyasını büsbütün itirmişdir. Bu, şərq mühitində tənəzzülün əsas səbəblərindən biridir. Yeni dövr qadına yeni və humanist münasibət tələb edir. O, hicabdan çıxmalı, təhsilə cəlb edilməli, azad olmalı, cəmiyyətdə kişilərlə bərabər hüquq qazanmalı, ictimai-mədəni işlərdə fəal iştirak etməli, quruculuq işlərində kişilərlə bərabər çalışmalı, ən vacibi isə normal tərbiyəçiyə çevrilməlidir. Çünki övladların ilk və əsas tərbiyəçiləri analardır. Cəmiyyətin gələcək taleyi də onun yetişdirdiyi övladlara, vətəndaşlara bağlıdır. Deyilənlər reallaşmasa, vətənin istiqlalı, millətin tərəqqisi və səadəti də mümkün deyil. Xalqın gələcəyi qadına humanist münasibətə bağlıdır.

Tədqiqatla bağlı aşağıdakı **nəticələrə** gəlinmişdir:

– XIX əsrin II yarısı - XX əsrin əvvəlləri Azərbaycan xalqının inkişaf tarixində milli intibah dövrü kimi səciyyələnən Azərbaycan xalqının ictimai, siyasi, ədəbi, mədəni, pedaqoji, məktəb və maarif, iqtisadi, təsərrüfat həyatında əsaslı yeniliklər, dönüş və vüsətli yüksəliş baş verir. Xalqımız bir millət kimi formalaşır;

– İctimai-siyasi, mədəni-pedaqoji və maarifçi fikirdə də bir oyanış və milli özünüdərk prosesi baş verir. Milli müstəqillik, istiqlaliyyət, hürriyyət ideyalarının təməli qoyulur. Bu ideyalar boy atıb milli dövlətçilik, mütərəqqi və humanist cəmiyyət yaratmaq fikrinə qədər yüksəlir. Qabaqcıl ictimai-siyasi fikirdə milli məkanda milli dövlət, demokratik ictimai quruluş yaratmaq, azadlığa, bərabərliyə əsaslanan vətəndaş cəmiyyəti qurmaq məfkurəsi formalaşır;

– Bütün bu ideyaları yarada, yaşada və inkişaf etdirə biləcək yüksək intellektə malik milli elitar ziyalı dəstəsi yetişir. Onlar böyük əzm, qeyrət və səylə, müasir düşüncə, vətəndaşlıq yanğısı ilə çalışır, xalqı ideya-nəzəri cəhətdən yeni quruculuğa, yeni cəmiyyətə hazırlayır, tərbiyə edir, bunun üçün bütün imkan və vasitələrdən yararlanırlar. Mətbuatın, teatrın bədii ədəbiyyatın, publisistikanın, şifahi nitqlərin,

məktəb və maarif ocaqlarının, dərsliklərin, uşaq mətbuatının gücündən, imkanlarından yararlanırlar;

– Qabaqcıl ziyalılarımız, öncül tərbiyəçi və ideoloqlarımız onu da yaxşı dərk edirlər ki, vətənin azadlığı, insanların hürriyyəti, millətin istiqlalı və bununla yanaşı demokratik cəmiyyət, ictimai bərabərliyə və qardaşlığa əsaslanan quruluş yaratmaqdan ötrü mütləq humanist ideyaların ümumcəmiyyət miqyasında qərarlaşması lazımdır. İnsanpərvərlik ideyaları şüurlara hakim olmadan demokratik və humanist cəmiyyət yaratmaq mümkün deyil;

– Milli tərbiyəçilərimiz, mütəfəkkirlərimiz və ideoloqlarımız humanist ideyaları düzgün təbliğ etmək, bu istiqamətdəki tərbiyə işini dürüst, məzmunlu və zamanın tələbinə uyğun qurmaqdan ötrü özləri bu ideyaları mükəmməl şəkildə mənimsəyirlər;

– Onların bu mütərəqqi fikir və mətləbləri əxz etməsi, öyrənməsi, nəhayət, ictimai mühitə tətbiq etməsi üçün mühüm qaynaqlar vardır. Bu qaynaqlardan ikisi xüsusilə əhəmiyyətli və diqqətəlayiqdir;

– Bu qaynaqlardan birincisi şərq və onun yaratdığı ədəbi, mədəni, hüquqi, siyasi və əxlaqi sərvət, həmçinin şərqin bir sıra mütərəqqi ənənələri idi;

– Özləri şərqli olan milli mütəfəkkirlərimiz şərqi yaxşı bilir, tanıyır, onun böyük sənətkarlarının əsrlər boyunca təbliğ etdikləri insanpərvərlik ideyalarından uğurla faydalanırdılar;

– Milli mənsubiyyətcə Azərbaycan türkü olan maarifpərvərlərimiz türklərin və azərbaycanlıların da ictimai baxış və ənənələrində, ədəbiyyatında, mənəvi sərvətində humanizmlə əlaqəli ta qədimdən mövcud olan məziyyətlərə yetərincə bələd idilər. Öz ideya-nəzəri təbliğatlarında, əməli fəaliyyətlərində həmin məziyyətlərdən ustalıqla faydalanırdılar;

– Rus dilini (bəziləri başqa Avropa dillərini də) bilən, yeni tipli dünyəvi məktəblərdə təhsil alan qabaqcıl ziyalılarımız istər keçmiş, istərsə də müasir qərb mədəniyyətinə, onun tarixinə oradakı humanist ideyalara, bu ideyaların məzmun və çalarlarına, detallarına, nəhayət, qərbə gətirdiyi demokratik inkişafa da yaxşı bələd idilər. İntibah dövrü Avropa humanistlərinin, XVIII əsr Avropa maarifçilərinin humanist

baxışlarını lazımınca mənimsəmişdilər. Bu baxışların Avropa xalqlarına bəxş etdiyi azadlığı, bərabərliyi, demokratik cəmiyyət quruculuğundakı əvəzsiz rolu yaxşı dərk edə bilirdilər. Elə buna görə də həmin baxış və ideyaları milli mühitə tətbiq etməyə çalışır, onun milli ictimai-siyasi gerçəklikdə inkişafına səy göstərir, xalqı bu ruhda tərbiyə etmək istəyirdilər;

– XIX əsr Azərbaycanda yeni məzmunlu humanizm ideyalarının inkişafında ilkin mərhələ, yəni təşəkkül və formalaşma mərhələsi sayıla bilər: Bu ideyalar həmin əsrin 30-40-cı illərində ilk maarifçilərimizin yaradıcılığı ilə cücərir, M.F.Axundov, "Əkinçi", "Ziya", "Kəşkül" qəzetinin əməkdaşları, M.Şahtaxtlı, M.T.Sidqi, S.M.Qənizadə və b. demokratik fikirli ziyalılarımız tərəfindən davam və inkişaf etdirilir;

– XX əsrin əvvəlləri Azərbaycanda yeni məzmunlu humanizm ideyalarının inkişafında yetkinləşmə, sabitləşmə və bütöv bir ictimai-siyasi, hüquqi konsepsiya halına düşmə mərhələsidir. "Molla nəsrəddin"çilərin, "füyuzat"çıların və b. mütərəqqi məfkurəli mütəfəkkirlərimizin bu işdə böyük əməyi vardır;

– Azərbaycan maarifpərvərləri yeni məzmunlu humanist ideyaların təbliğində, təlqinində və intişarında köhnəpərəstlərin, mürtəce ruhanilərin, qaragüruhun və onları dəstəkləyən bəzi mətbuat orqanlarının ciddi müqaviməti ilə üzləşirdilər;

– Milli maarifçilərimizin ortalığa atdıqları, təbliğ etdikləri yeni məzmunlu humanist ideyaların əsas tezisləri təxminən bunlar idi: irqindən, cinsindən, dinindən, milli və sinfi-silki mənsubiyyətindən, maddi-mülki vəziyyətindən, ixtiyar və imtiyazından asılı olmayaraq bütün insanlar bir-birini sevməli, qardaş olmalı, bir-birinə qarşılıqlı yardım, hörmət və ehtiram göstərməlidir. Cəmiyyət, dövlət və qanun qarşısında hamının hüququ eyni olmalı, ailədən tutmuş dövlətə qədər hamı cəmiyyətdə eyni ictimai, siyasi və hüquqi məsuliyyət daşımalıdır. Zülm, ədalətsizlik, sinfi-silki fərq aradan qaldırılmalı, hamı azad, bərabər yaşamalıdır. Xeyirxahlıq, yaxşılıq, alicənablıq, insanlara məhəbbət, mərhəmət, qayğıkeşlik, səmimiyyət, dostluq, yoldaşlıq bütün cəmiyyət üzvlərinin dərk olunmuş missiyasına, amalına və əməlinə çevrilməlidir. Bədxahlıq, pislik, istismarçılıq, bir-birinin haqqına və

mülkünə sahib çıxmaq meyli ortadan götürülməlidir. Çünki bunlar reallaşmadan mütərəqqi və humanist cəmiyyətin yaranması, xalqın normal tərəqqiyə və səadətə nail olması, azad və bərabər yaşaması mümkün deyil;

– Haqqında danışdığımız dövrdə humanizm ideyalarının təbliği, xalqın bu istiqamətdə tərbiyəsi müxtəlif istiqamətlərdə vasitəsilə həyata keçirilirdi. Bunların içərisində "böyüklər üçün" mətbuat, məktəb dərslikləri, oxu kitabları və pedaqoji mətbuat xüsusi önəm kəsb edirdi;

– Əgər "böyüklər üçün" mətbuatda bütün kütlənin tərbiyəsi nəzərdə tutulur, daha ciddi, hərtərəfli məzmuna malik ümumi və nəzəri materiallar nəşr olunurdusa, "kiçiklər üçün" nəzərdə tutulan dərsliklərdə, qiraət kitablarında və pedaqoji mətbuatda daha sadə yazılara, daha çox bədii-pedaqoji mətnlərə yer verilirdi. Bu bədii-pedaqoji mətnlərdə insanpərvərliyin ayrı-ayrı detalları, başa salınırdı. Bu əsərlərdə ümumi konsepsiya belə qoyulur və gənc nəslə də bu cür başa salınırdı: İnsanlar bir-birinə möhtacdırlar. Bir-birini sevmədən, bir-birinə xeyirxahlıq göstərmədən xoşbəxt yaşaya bilməzlər. İnsanlar arasındakı sevgi, qarşılıqlı hörmət hamının səadətinə, bərabərliyinə və azadlığına gətirib çıxarır;

– Milli mütəfəkkirlərimiz böyüməkdə olan nəslin xalqın gələcəyi olduğunu yaxşı dərk edir və onun humanist ruhda tərbiyəsinə xüsusi diqqət yetirirdilər;

– İslam şərqində ilk dəfə olaraq XIX əsrin ortalarından etibarən mütərəqqi fikirdə qadın şəxsiyyətinə yüksək dəyər vermək meyli və missiyası ortalığa çıxdı. Orta əsrlərdə bəzən bədii əsərlərdə belə bir meyil özünü təzahür etdirsə də, bu, praktiki xarakter daşımır və ictimai həyatda tətbiq edilmirdi. XIX əsrin ortalarından başlayaraq həmin meyil və missiya həm nəzəri, həm də praktiki məzmun kəsb etməyə başladı;

– Azərbaycan mütəfəkkirləri və tərbiyəçi ideoloqları dərk etdilər ki, qadına və onun şəxsiyyətinə insani münasibət humanizmin tərkib hissəsidir. Qadın kəmiyyət baxımından cəmiyyyətin tən yarısını təşkil edir. Övladları tərbiyə etmək mənasında böyük tərbiyəçi funksiyasını yerinə yetirir. Yəni böyük ictimai qüvvə olmaqla yanaşı həm də böyük tərbiyəçidir. O, cəmiyyət quruculuğunda fəal şəkildə iştirak etməlidir;

– Bu missiyanın reallığa çevrilməsi üçün qadına bəslənilən ənənəvi münasibət dəyişməli, o, mənəvi əsarətdən xilas olmalıdır. Qadın çadradan çıxmalı, kişilərlə bərabər hüquqa malik olmalı, lazımi hüquq və azadlıq əldə etməli, təhsilə cəlb edilməli, bütün işlərdə kişilərlə çiyin-çiyinə çalışmaq imkanı qazanmalıdır.

– Humanist və demokratik cəmiyyət qurmaq idealı qadın şəxsiyyətinə yeni münasibətə bağlıdır;

– Haqqında danışdığımız dövrdə yeni məzmunlu humanizm ideyalarının təşəkkülü və formalaşması Azərbaycanda milli müstəqillik, azadlıq, bərabərlik və dövlətçilik fikrinin və idealının yaranmasına, ictimai şüurun oyanmasına və formalaşmasına, nəhayət, AXC- nin, müstəqil dövlətimizin meydana gəlməsinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin dərc edilmiş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**


1. Nəbiyeva G.M. Mirzə Fətəli Axundovun yaradıcılığında humanizm ideyaları // Doktorantların və gənc tədqiqatçıların XXII respublika elmi konfransının materialları, 2018, Bakı, II cild, s.356-357.
2. Nəbiyeva G.M. İntibah dövrü Avropa humanistlərinin mütərəqqi ideyalarının XIX əsrin II yarısı-XX əsrin əvvəllərində Azərbaycan mədəni-pedaqoji mühitinə təsiri // Bakı: Pedaqoji Universitetin Xəbərləri Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, 2019. C.67, № 3, s.241-249.
3. Nəbiyeva G.M. Avropada maarifçilik hərəkatı və Azərbaycan ictimai-pedaqoji fikrində humanizm ideyalarının inkişaf problemləri // Bakı: Bakı Slavyan Universiteti, Elmi əsərləri, 2019. № 1, s.27-33.
4. Nəbiyeva G.M. XIX əsrin ortalarında Azərbaycanda yeni məzmunlu humanizm ideyaları və onun təşəkkülünü mümkün edən amillər // Bakı: Tarix, insan və cəmiyyət, 2019. №2 (25), s.165-173.
5. Nəbiyeva G.M. Şərqdə humanizm ideyaları və onun XIX əsrin II yarısı və XX əsrin əvvəllərində Azərbaycan ictimai-pedaqoji mühitinə təsiri // Gəncə: Gəncə Dövlət Universiteti Elmi xəbərlər, 2019. №2, s 254-259.

6. Nəbiyeva G.M. XIX-XX əsrlərin hüdudlarında Azərbaycan ictimai-pedaqoji fikrində humanizm ideyalarının inkişafı və onun milli qaynaqları // Bakı: Azərbaycan Respublikası Təhsil İnstitutu, Elmi əsərlər, 2019. Cild 86, №4, s.157-162.

7. Nəbiyeva G.M. M.Şahtaxtlı, N.Nərimanov və S.M.Qənizadənin humanist görüşləri // Bakı: Bakı Qızlar Universiteti Elmi əsərlər, 2019. Cild 10,№ 3. s.115-119.

8. Набиева Г.М. Развитие идей гуманизма на основе творчества Н.Нариманова, У.Гаджибекова, Ф.Кочарли, А.Шаига, А.Саххата в кулътурно-педагогической среде Азербайджана в начале XX века // Калининград: Научный журнал Известия Балтийской Государственной Академии Рыбопромыслового Флота, 2020. №2 (52), с. 233-238.

9. Набиева Г.М. Роль М.Е.Расулзаде и приверенцем Муллы Насреддина в распостранении идей гуманизма в Азербайджане в начале XX века // Москва:Международный научно-исследователъский журнал «Евразийский Союз Ученых», 2020. Част 5, №1(70), с. 26-30.

10. Nabiyeva G.N. Education of humanism in mother tongue textbooks and reading books in Azerbaijan at the beginning of the 20th centuary // London: European research innovation in science, education and technology, 2020, February 10-11. p. 46-48.

11. Nabiyeva G.N. Supporting the ideas of humanism in our mother tongue books (Second half of XIX-early XX century) // II Міжнародної наукової конференції Освıта I Наука у Мınливому СВІТІ: проблеми та перспективи розвитку Дніпро, 27-28 березня 2020 р. II Частина, с.285- 286.

12. Nabiyeva G.N. Humanism education in the press of our children (Based on materials from magazines «Dabistan», «Lider» and «Maktab») // Матеpıaли II міжнародної науково-практичної конференції Філософсько-Світоглядні ТА Культурологічні Контексти Неперервної Освіти. Дніпро, 29 квітня 2020 р., с. 119-120.

13. Nəbiyeva G.M. XX əsrin əvvəllərində Azərbaycan pedaqoji mətbuatında humanizm ideyaları. Bakı: Pedaqoji Universitetin

Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, 2022. C.70, № 4, s.107-114.

14. Nabiyeva G.N. Views of «Fyuuzat» members on humanism. Киів. Вісник післядипломноï освіти. Серія «Педагогічні науки». Збрник наукових праць. Выпуск 23(52) 2023, с.167-182.

15.Набиева Г.М. Гуманистические идеи в педагогике. Психолого-педагогические проблемы современного образования: пути и способы  их решения. Сборник материалов VI международной научно-практической конференции. Дербент, Республика Дагестан. 27 февраля 2023 г., с. 294-298.

Dissertasiyanın müdafiəsi ____ ________________2024-cü il tarixdə saat ________Naxçıvan Müəllimlər İnstitutunun nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Naxçıvan MR, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 2, AZ 7003, Naxçıvan Müəllimlər İnstitutu

Dissertasiya ilə Naxçıvan Müəllimlər İnstitutunun Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Naxçıvan Müəllimlər İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ___ _____________ 2024-cü il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 04.07.2024

Kağızın formatı: $60 \times 84^{1/16}$

Həcm: 37882

Tiraj: 100